**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ÜLKƏR KAZIM QIZI ƏLİYEVA**

# XX ƏSRİN 20–Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN NEFTİNİN BEYNƏLXALQ ƏLAQƏLƏRDƏ ROLU

İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI – 2017**

Dissertasiya işi AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Həsən Cahangir oğlu Əlibəyli**
tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Ağalar Nəriman oğlu Abbasbəyli**
tarix üzrə elmlər doktoru, professor

**Zümrüd Eldar qızı Məlikova**
siyasi elmlər üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrası

Dissertasiya işinin müdafiəsi 18__ __04__ 2017-ci il tarixdə saat __ __ Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komisiyasının 7 dekabr 2016-cı il tarixli 191 saylı əmri ilə 5901.01 – Beynəlxalq münasibətlər ixtisasında siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilməsi üçün Bakı Dövlət Universiteti nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ, Bakı şəhəri, Z.Xəlilov küç.23. I korpus, 412-ci otaq.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat __ _______ 2017-ci il tarixdə göndərilmişdir.

**Birdəfəlik Dissertasiya Şurasının**
**elmi кatibi,** siyasi elmlər üzrə
fəlsəfə doktoru **dosent K.C.Məmmədov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** XX əsrin əvvəllərindən beynəlxalq münasibətlərin inkişafına və təşəkkül tapmasına ciddi təsir göstərən amillərdən biri də o dövrün dövlətləri arasında açıq və qapalı şəkildə neft mənbələrini ələ keçirmək uğrunda gedən mübarizə oldu. Bu mübarizəyə təkan verən amillərdən ən başlıcası neft strukturlarının mövcud olduğu ölkələri ələ keçirmək, həmin ölkələri ya müstəmləkə kimi idarə etmək və ya da protektorat formasında onları asılı vəziyyətə salmaq olmuşdur. Hər iki formanın ikisində də müstəmləkəçilik sisteminin bir növü olmaqla yanaşı, başqa xalqlara məxsus təbii sərvətləri talan etmək və bu ölkələrin əhalisindən isə ucuz işçi qüvvəsi kimi istifadə olunmuşdur. Qeyd etmək lazımdır ki, qul halına salınaraq təbii sərvətləri ölçüsüz-biçimsiz talan olunan xalqlar uzun müddət belə acınacaqlı vəziyyətə heç də dözə bilməzdi və müstəmləkəçiliyə qarşı müxtəlif formalarda mübarizə aparırdılar. Beləliklə, asılı vəziyyətə salınan xalqlar zorla əllərindən alınan təbii sərvətləri üzərində yiyəlik haqqını bərpa etməyə çalışırdılar. Bu proses dünyanın bir çox ölkələrində səngimək bilmədən davam etmişdir. Neft sənayesinin milliləşdirilməsi uğrunda başlanan mübarizə hüquqları tapdalanan xalqların kəskin etirazı formasında təzahür etmişdi. Əslində bu mübarizə, müstəmləkəçilərə qarşı çarpışma bütövlükdə müstəmləkə sistemınə qarşı acınacaqlı həyat sürməyə məhkum edilmiş, milli sərvətləri üzərində yiyəlik hüquqları əllərindən alınmış xalqların milli-azadlıq uğrunda mübarizələrinin tərkib hissəsi olmuşdur. Bu proses zəngin neft strukturları olan Vətənimizdən də yan keçməmiş, XIX əsrin əvvəllərindən etibarən xalqımızın neft mədənləri üzərində yiyəlik haqqı tapdalanmış, 1806-cı ildə isə Rus çarı I Nikolayın imzaladığı fərmanla Abşeronun neft yataqları, balıq vətəgələri və duz mədənləri rus Çarının xüsusi mülkiyyəti olması təsdiq edilmişdir. Bu asılılıq fərmanı insan hüquqlarının kobud şəkildə pozulması demək idi. Bu dövrdən etibarən Azərbaycanın əvəzolunmaz öz təbii sərvətinin idarə olunması, yiyəlik haqqı yadların səlahiyyət dairəsinə daxil edildi. Bununla da Azərbaycan xalqı milli sərvətləri üzərində təbii və qanuni hüququndan məhrum edildi.

Birinci dünya müharibəsi ərəfəsində neft mədənlərini ələ keçirmək uğrunda böyük dövlətlər və onlara məxsus transmilli kompaniyalar arasında gedən mübarizə daha da kəskinləşdi. Belə bir vəziyyətin baş verməsinə təkan verən əsas amil daxili yanacaqla



işləyən mühərrikin kəşfi və bu mühərrikin hərbi donanmaya tətbiq olunması oldu. Bu sahədə ilk addım Böyük Britaniya dövləti tərəfindən atıldı. Bu innovasiyanın qızğın tərəfdarı o illərdə hərbi nazir vəzifəsində çalışan Uinston Çörçill olub. Hərbi donanmada daxili yanacaqla işləyən mühərrikin tətbiq edilməsi ingilis hərb gəmilərinin dənizlərdə sürətlə üzməsinə təkan verdi. Qeyd edək ki, ondan ilk dəfə 1915-ci ildə Folklend adaları ətrafında alman-ingilis hərbi donanmaları arasında gedən döyüşlərdə istifadə olunmuşdur. Həmin hərbi toqquşmada almanlar məğlub oldular. Belə bir vəziyyətin baş verməsinə əsas səbəb ingilis hərb gəmilərinin daxili yanacaqla işləmələri, onların sürətlə hərəkət etməsi oldu. Təsadüfi deyil ki, müharibədə qalib gələn Böyük Britaniyanın adından sevinclə çıxış edən Çörçill bəyan etdi ki, "biz neft dalğaları üzərində üzə-üzə qələbəyə nail olduq!". İngiltərənin müstəmləkə mülkləri ilə qürrələnən bu şəxs başqa xalqlara məxsus torpaqların zəbt edilməsi və idarə olunmasında neft amilindən bacarıqla istifadə olunmasında mühüm rol oynamışdı[1]. Əlavə edək ki, Birinci dünya müharibəsi ərəfəsində İranda kəşf olunmuş neft yataqları artıq ingilislər tərəfindən idarə olunurdu. 1907-ci ildə isə İranın nüfuz dairəsinə bölmək üçün Çar Rusiyası ilə Böyük Britaniya arasında müqavilə imzalanmışdı. Məhz o illərdə də Böyük Britaniyanın çevik iş adamları Bakı neft ilə də maraqlanırdılar[2]. Onlara bu regionda zəngin neft yataqlarının mövcud olması haqqında məlumatlar verilmişdi. Çar hökuməti də həmin illərdə maliyyə çətinlikləri çəkdiyindən və neft texnologiyası baxımından Avropa ölkələrindən geridə qaldığı üçün Abşeron neft yataqlarının istismarında Avropanın transmilli şirkətləri ilə əməkdaşlıq etməyə marağı vardı. Beləliklə, Avropanın bəzi transmilli neft maqnatlarının Bakı neft yataqlarının ələ keçirməsinə şərait yarandı. Böyük Britaniya ilə Çar Rusiyası arasında 1907-ci ildə imzalanmış müqavilə alyans formasında iki müstəmləkəçi dövlət arasında ekspansiya siyasəti istiqamətində birgə fəaliyyət göstərmələrinin hüquqi əsası oldu. Abşeronun neft yataqları da bu alyansın maraq dairəsində idi. Bununla da ölkəmizin milli sərvəti olan Bakı neft yataqları ətrafında fırlanan avropalı maqnatlarının varlanmasına geniş imkanlar yaradıldı. Neft milli sərvət olmaqla

[1] Hopkirk P. On the secret service east of Constantinople, The Plot to bring down to the British Empire, published by John Murray, London 2006, 431 p
[2] Thompson A.B. The oil fields of Russia and the Russian petroleum industry. London: C.Lockwood and Son, 1904. 564 p.

yanaşı, eyni zamanda çox mühüm strateji əhəmiyyətə malik olan bir sərvət hesab olunur. Bu prizmadan Avropanın transmilli şirkətləri həm varlanmaq hərisliyilə bu möcüzəli sərvətə əhəmiyyət verirlər, həm də mənsub olduqları dövlətlərin hərbi-strateji planlarının və xarici siyasətlərinin həyata keçirilməsi üçün əlverişli imkanların yaradılması baxımından!

Azərbaycan Xalq Cümhuriyyətinin 23 ay ərzində hakimiyyətdə olduğu ərəfədə Bakı neft sənayesi üzərində xalqımızın itirilmiş yiyəlik haqqı bərpa olunmuşdur[1]. Bu dövr ziddiyyətli hadisələrlə yüklənmiş və son dərəcə keşməkeşli bir dövr idi. Bakı neftini ələ keçirmək məqsədi ilə o dövrdə beynəlxalq münasibətlərin əsas oyunçuları kimi çıxış edən böyük dövlətlər müxtəlif vasitələrdən istifadə edirdilər[2]. Bu hadisələr burulğanından məharətlə çıxmağa müvəffəq olan Sovet Rusiyası Azərbaycanı işğal etdi və Bakı neft sənayesi üzərində Çar hökumətinin neft siyasəti başqa ad altında transformasiya olundu. Bu dövrdən etibarən Azərbaycanın neftinin taleyində yeni bir mərhələ – daha təhlükəli bir dövr başlandı. Çar Rusiyasının hökmranlığı dövründən fərqli olaraq Sovetlərin hakimiyyətə gəlişindən sonra Bakı neft sənayesi bütövlükdə Sovet Rusiyası tərəfindən ələ keçirildi. Əlavə edək ki, Çarizmin hakimiyyəti illərində Abşeronda rüşeym halında təşəkkül tapan milli burjuaziya təbəqəsi Abşeron hüdudlarından kənara çıxa bilmədiyinə görə tam formalaşa bilmədi. Abşeronda milli burjuaziya adı altında təşəkkül taparaq formalaşan bu təbəqənin formalaşması onunla ölçülürdü ki, təbəqə ancaq təbii yolla, başqa sözlə yalnız neft quyularının fontan vurması hesabına qısa bir zaman kəsiyində böyük bir sərvət sahibi olmuşdular[3].

Bakı neftini təcili olaraq ələ keçirməyə can atan Sovet Rusiyasının əsas məqsədi maliyyə problemləri məngənəsində sıxılan ac və yalavac Rusiyanı bu sıxıntıdan xilas etmək və həm də bu ölkədə Bakı nefti hesabına sənayeləşməyə nail olmaq idi. Beləliklə, Avropanın bəzi dövlətləri ilə XX əsrin 20-ci illərində ticarət sahəsində əlaqələr bərqərar olundu. Bununla da Almaniya ilə barter üsulu ilə ticarət əlaqələrinin yaradılmasına nail olan Rusiyada

[1] Azərbaycan Xalq Cümhuriyyəti, 2 cilddə, Ic. Bakı: Lider, 2004, 446s.; Azərbaycan Xalq Cümhuriyyəti, 2 cilddə, IIc. Bakı: Lider, 2005, 476s.
[2] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Bakı: Gənclik, 1991. 112 s.
[3] Сеидов В.Н. Архивы Бакинских Нефтяных Фирм (XIX–начало XX века). Москва: Модест Колеров, 2009, 290 с.



sənayeləşmə prosesinin sürətlə aparılmasına geniş imkanlar yaradıldı. Bakıdan fasiləsiz nəql edilən neft və neft məhsulları hesabına əvvəllər Sovet Rusiyasında, 1922-ci ilin dekabrında SSRİ-nin yaradılmasından sonra isə bu ölkədə ağır və maşınqayırma sənayesinin əsası qoyuldu.

Beləliklə, istər Çar hakimiyyətinin hökmranlığı dövründə, istərsə də bu müstəmləkəçi dövlətin talançılıqla müşayət olunan neft siyasətinin Sovet Rusiyasına transformasiya olunmasından sonrakı illərdə, Azərbaycan xalqının öz milli sərvətləri və ələlxüsus neft sənayesi üzərində yiyəlik haqqı təmamilə əlindən alınmışdı. Bu özbaşına və ədalətsiz siyasətdə həm də Avropanın bir sıra transmilli şirkətləri fəal iştirak etmişdilər, o cümlədən də 1928-ci ildə əsası qoyulan Beynəlxalq Neft Kartelinin (Yeddi bacılar) bəzi üzvləri də! Buna görə Birinci dünya müharibəsinin ərəfəsindən 20-ci illərin sonuna kimi xalqımızın bu əvəzsiz milli sərvəti, başına gətirilən faciələri dissertasiya çərçivəsində araşdırılaraq sistemli şəkildə tədqiq olunmasının ciddi elmi-siyasi əhəmiyyətə malik olması ilə yanaşı, göstərilən problemin hərtərəfli öyrənilməsi aktuallıq kəsb edir. Müasir dövrdə xalqımızın neft sənayesi üzərində təbii və qanuni haqqı bərpa olunmuş, neft satışından əldə olunmuş gəlir ölkənin iqtisadi inkişafına sərf olunduğu kimi eyni zamanda milli təhlükəsizliyin qorunmasının təmin olunmasında istifadə olunur. Bütün bu qeyd edilənlər dissertasiya mövzusunun aktuallıq dərəcəsinin kifayət qədər yüksək olduğunu ortalığa qoyur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Bakı neftidir. Tədqiqatın predmeti isə XX əsrin 20-ci illərində Bakı neftinin istər AXC-nin, istərsə də SSRİ sənayesinin qurulmasında və beynəlxalq münasibətlərində oynadığı roldur.

**Tədqiqatın xranoloji çərçivəsi.** Dissertasiya işinin xranoloji çərçivəsi I Dünya müharibəsindən 1920-ci illərin sonuna kimi olan dövrü əhatə edir. Bu illərdə beynəlxalq münasibətlərdə gərgin hadisələr baş vermiş və bir-birini əvəz etmiş bu dramatik hadisələrdə də Bakı neftini ələ keçirmək uğrunda mübarizə heç zaman səngiməmiş, həmin prosesdə müxtəlif dövlətlər və onların çətri altında fırlanan transmilli kompaniyalar iştirak etmişdilər. Bu dövrün əlamətdar və ölkəmizin tarixinə qızıl hərflərlə həkk olan hadisələrdən biri milli dövlətimizin – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması olmuşdur. Bütün bu dövrün xüsusiyyətlərini nəzərə almaqla onun xüsusi xranoloji çərçivədə öyrənilməsi və tədqiq olunmasını zəruri saydıq.

**Mövzunun öyrənilməsi səviyyəsi.** Neft sənayesi elə bir sahədir ki, o özünün spesifik xüsusiyyətlərinə görə, habelə qiymətli təbii sərvət olması baxımından bir çox ölkələrdə bu sahəni dərindən bilən mütəxəssislərin və qələm sahiblərinin diqqətini özünə cəlb etmişdir. Bu qiymətli sərvətin tarixi və mövcud olması barədə, onun iqtisadi və hərbi-strateji əhəmiyyəti haqqında çoxsaylı monoqrafiyalar, tədqiqat işləri qələmə alınmış, dissertasiyalar müdafiə olunmuşdur. Bu təbii sərvətin insan həyatında oynadığı roldan bəhs edən kitablar və tədqiqat işləri yazılsa da, bu proses müasir dövrdə hələ də davam etməkdədir. Heç də təsadüfi deyil ki, neft barəsində qələmə alınmış bir çox kitab və monaqrafiyalarda ona "qara qızıl" adı verilmiş, neftin insan həyatında çox mühüm rol oynamasından bəhs olunmuşdur. Neft sənayesinə belə bir yanaşmalar, onun tərif və ya lənətlə damğalanması halları Bakı neftindən də yan keçməmiş, qələm sahiblərinin bir çoxu onu genbol tərifli ifadə və boyalarla vəsf etsələr də, elələri də olub ki, onu lənət damğası ilə qarğışlı ifadələrlə "bəzəmişlər". Bakı nefti haqqında ən çox kitablar və neftin müxtəlif aspektləri barəsində tədqiqat işləri əsasən Sovet dövründə qələmə alınmışdır. Qeyd edək ki, bu dövrdə işıq üzü görmüş kitablar və tədqiqat işlərinin hamısı marksizm-leninizm ideologiyasının prinsip və tələbləri əsasında qələmə alındığından, neft sənayesinə də Sovet xalqının milli sərvəti və ictimai mülkiyyəti baxımından qiymət verilmişdir. Bu ruhda yazılmış əsərlərin fəlsəfəsini Çar hökumətinin Bakı nefti ilə bağlı siyasətini tənqid etmək, Sovet hökumətinin neft sənayesilə əlaqədar siyasətini isə proletar beynəlmiləlçiliyi prinsipinin tələblərinə uyğun formada bütün Sovet xalqının milli sərvəti kimi tərifləmək təşkil etmişdir.

Azərbaycan tarixşünaslıq elminin tanınmış nümayəndələrindən olan Ə.S.Sumbatzadənin, professor S.S.Əliyarovun əsərlərində Azərbaycan neft sənayesinin müxtəlif aspektləri, müxtəlif mövcud mənbələrdən yaradıcılıqla istifadə olunmaqla araşdırılmış, maraqlı fikir və mülahizələr irəli sürməklə obyektiv nəticələr çıxarılmışdır. Akademik Ə.S.Sumbatzadə "XIX əsrdə Azərbaycan sənayesi" adlı monoqrafiyasında neft sənayesinin bütün mərhələləri, o cümlədən neft strukturlarının aşkar edilməsi, neftin istehsalı, nəqli və emalı problemlərini dərindən təhlil etmişdir.[1] Professor S.S.Əliyarovun "Birinci dünya müharibəsi dövründə Azərbaycanda neft inhisarları"

[1] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX веке. Баку: АН–Аз. ССР, 1964, 501с.



adlı monoqrafiyasında xarici inhisar kapitalının Bakı neft sənayesinə ekspansiyası müxtəlif faktiki materiallardan istifadə etməklə dərindən təhlil olunmuşdur.[1] Azərbaycan neft sənayesi haqqında oxucular tərəfindən maraqla qarşılanan fundamental monoqrafiya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qələmə alınmışdır. Bu maraqlı əsərdə Bakı neftinin tarixi mötəbər mənbələrdən istifadə etməklə dərindən təhlil edilmiş, müxtəlif dövrlərdə xalqımızın bu əvəzsiz milli sərvətinin yadlar tərəfindən necə idarə olunmasına münasibət bildirilmişdir[2].

Sovet dövründə Azərbaycan neftinin tarixini, beynəlxalq ticarət əlaqələrində iştirakını, beynəlxalq bazarlarda satışını araşdıran görkəmli alimlərdən biri də professor Əli Əliyev olmuşdur. Bu istiqamətdə onun qələmə aldığı ilk və maraqlı kitab "Sovet hakimiyyəti illərində Azərbaycan neft sənayesinin inkişafı" adlanır.[3] Bu əsərdə Bakıda neft sənayesinin inkişafı geniş planda tədqiq olunmuşdur. 2011-ci ildə "Elm" nəşriyyatı tərəfindən nəşr edilmiş monoqrafiyasında isə XX əsrin 20-30-cu illərində Bakı neftinin dünya bazarlarında yüksək qiymətə satılması şərh edilmişdir.[4] Dünya bazarlarında Bakı neftinin çoxlu müştərisi olmaqla satılmasına səbəb olan amillərdən biri də onun yüksək keyfiyyətə malik olması idi. Başqa sözlə, Bakı neftinin kükürdsüzlüyü və yüngül çəkili olması səbəbindən onun daim müştərisi olmuşdur və hal-hazırda da proses davam etməkdədir.

Rusiyada bolşeviklərin hakimiyyəti ələ alması ərəfəsində Bakıda neft sənayesini ələ keçirmək kompaniyasına rəhbərliyi şəxsən V.İ.Leninin özünün birbaşa göstəriş və sərəncamları ilə həyata keçirmişdir. Bu problemlə bağlı Leninin göstəriş və sərəncamları "Azərbaycan haqqında" adlı topluda nəşr edilmişdir.[5] Kitabdan

[1] Алияров С.С. нефтяные монополии в Азербайджане в период первой мировой войны. Баку: АГУ, 1974, 232 с.

[2] Əliyev İ., Muradverdiyev A. Azərbaycan nefti dünya siyasətində. I kitab. Bakı: Azərbaycan, 1997, 239 s.; Əliyev İ., Muradverdiyev A. Azərbaycan nefti dünya siyasətində. II kitab. Bakı: Azərbaycan, 1997, 264 s.; Алиев И. Каспийская нефть Азербайджана. М.: Известия, 2003, 712с.

[3] Əliyev Ə. Sovet hakimiyyəti illərində Azərbaycan neft sənayesinin inkişafı. Bakı: Azərnəşr, 1957, 71 s.

[4] Əliyev Ə. Azərbaycan nefti dünya bazarında (XX əsrin 20–30–cu illəri). Bakı: Elm, 2011, 360 s.

[5] Ленин В.И. Об Азербайджане. Баку: Азернешр, 1959, 218 с.; Ленин В.И. Об Азербайджане. Баку: Азербайджанское Государственное

göründüyü kimi, sosialist inqilabına rəhbərlik edən bu şəxs Bakının ələ keçirilməsinə ciddi əhəmiyyət vermiş, Abşeron neftinin Rusiyanı gələcək iqtisadi inkişafı və xüsusilə sənayeləşməsində mühüm rol oynayacağını əvvəlcədən görə bilmişdi. Bu kitabdan və orada olan faktiki materiallardan dissertasiyanın yazılmasında geniş istifadə olunmuşdur. Sovet Rusiyasının 1920-1922-ci illər neft siyasəti Məmməd Həsən Əliyevin namizədlik dissertasiya işində də geniş şərh edilmişdir. Bakı, Tiflis və Moskvanın dövlət arxivlərinin materiallarından bacarıqla istifadə edən müəllif maraqlı ümumiləşdirmələr aparmağa nail olmaqla, obyektiv elmi-siyasi nəticələr çıxarmağa müvəffəq olub. Dissertasiya işində qeyd edilir ki, XX əsrin 20-ci illərində Rusiyada sənayeləşmənin aparılmasında Bakı nefti müstəsna rol oynamışdır.[1]

Tədqiq olunan dövrdə Bakı nefti üzərində Azərbaycan xalqının yiyəlik hüququnun təsbit olunması istiqamətində real addımlar Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən atıldı. Milli dövlətçiliyimizin neft siyasəti AXC-nin daxili və xarici siyasətinə həsr edilmiş monoqrafiya və tədqiqat işlərində öz ifadəsini tapmışdır. Diqqəti çəkən bu işlər sırasından professor Cəmil Həsənlinin,[2] Nəsib Nəsibzadənin[3] tədqiqatlarını qeyd etmək olar. Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr olunmuş tədqiqatlar sırasından iki cilddən ibarət tədqiqat işini xüsusi qeyd etmək lazımdır. Bu tədqiqat işlərinin hər ikisində Milli dövlətimizin daxili və xarici siyasətindən ətraflı bəhs olunmuşdur. Qeyd etmək lazımdır ki, Milli Dövlətimizin tarixinin bəzi aspektləri AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun alimləri tərəfindən qələmə alınmış yeddi cilddən ibarət tədqiqat işlərində araşdırılmış, müxtəlif tarixi mənbələr və arxiv

Издательство, 1970, 382 с.; Ленин В.И. Речь на съезде рабочих и служащих кожевенного производства. 2 октября 1920 г. Полное собрание сочинений. Т 41, Издание пятое, Москва: 1981, 696с.

[1] Əliyev M. Azərbaycan SSR ilə RSFSR arasında texniki iqtisadi-əməkdaşlıq (1920–1922): Tarix elm. nam. ... dis. Bakı, 1990, 180 s.

[2] Həsənli C. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Azərbaycan Diplomatik Akademiyası, Bakı, 2013, 588 s.; Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində 1918–1920–ci illər. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1993, 362 s.; Гасанлы Дж. Русская революция и Азербайджан: трудный путь к независимости. 1917 – 1920. Москва: Флинта, 2011, 672 с.

[3] Nəsibzadə N. Azərbaycan Xarici Siyasəti (1918–1920). Bakı:Ay–Ulduz, 1996, 216 s



sənədlərindən yaradıcılıqla istifadə etməklə maraqlı ümumiləşdirmələr aparılmış, tarixi həqiqətləri aşkar etməklə obyektiv nəticələr əldə olunmuşdur[1]. Nəinki bu 7 cildlik fundamental əsərlərdən və eyni zamanda Tarix İnstitutunun görkəmli alimləri tərəfindən qələmə alınmış başqa tədqiqat işlərindən də dissertasiya üzərində işləyərkən istifadə olunmuşdur.

Tədqiqat işinin qələmə alınmasında xarici ölkə alimləri tərəfindən nəşr olunmuş bəzi kitablardan və tədqiqat işlərindən də tənqidi yanaşma üsulunun tətbiq olunması ilə istifadə olunmuşdur. Diqqəti çəkən belə monoqrafiyalardan biri də D.Erginin "Добыча: Всемирная история борьбы за нефть, деньги и власть" adlı tədqiqat işidir.[2] Bu kitabda neft amilinin beynəlxalq münasibətlərdə və bütövlükdə dünya siyasətində oynadığı roldan ətraflı bəhs olunmuşdur. Maraqlı ümumiləşdirmələrə müvəffəq olmuş müəllif bu tədqiqat işində belə bir obyektiv nəticəyə gəlir ki, neft uğrunda mübarizənin əsas məqsədi varlanmaq və hakimiyyəti ələ keçirmək hərisliyi olub.

İrəlidə qeyd olunduğu kimi, XIX əsrin sonu və XX əsrin əvvəllərindən etibarən Avropanın bəzi imperialist xislətli dövlətləri Bakı nefti ilə ciddi maraqlanır və bu sərvətdən pay əldə etmək üçün Çar hökuməti ilə alyans formasında da əməkdaşlıq etməyə meyl göstərirdilər. Belə iqtisadi siyasətin önündə isə həmin ölkələrin transmilli şirkətləri gedirdilər. Başqa xalqların milli sərvətlərinə göz tikən və bu məqsədlərə nail olmaq üçün mümkün olan bütün vasitələrdən (o cümlədən rüşvətdən də) istifadə edən dövlətlərin önündə Böyük Britaniya addımlayırdı. Birinci dünya müharibəsində Çar hökuməti müstəmləkə oyunlarında ofsaytda qalandan sonra Böyük Britaniya müstəmləkəçiləri yaranmış hərbi-siyasi vakuumu doldurmaq məqsədi ilə hərəkətə gəldilər. Bu məqsədə çatmaq niyyəti ilə Fars körfəzi, İraq və İran ərazisindən keçən müstəmləkəçi ingilis generalı Denstervilin komandanlığı altında ekspedisiya korpusu

[1] Azərbaycan tarixi, 7 cilddə, IVc. (XIX əsr). Bakı: Elm, 2000 456 s.; Azərbaycan tarixi, 7 cilddə, VIc. (aprel 1920 – iyun 1940). Bakı: Elm, 2008 568s.

[2] Ергин Д. Добыча: Всемирная история борьбы за нефть, деньги и власть. Москва: Альпина Паблишер, 2012, 944 с.

Bakıya soxuldu[1]. Bakıya gəlişinin əsas məqsədini açıqlayan ingilis generalı Bakı limanında onu qarşılayanlar qarşısında açıq şəkildə bəyan etdi ki, "onu buraya çəkib gətirən əsas məqsəd Bakı nefti və Mərkəzi Asiyanın pambıq plantasiyalarıdır". Bu ingilis generalı babaları tərəfindən əsası qoyulmuş müstəmləkəçilik siyasətinə sadiq qalaraq, onların davamçısı kimi Bakını və Mərkəzi Asiyanı ələ keçirmək niyyətində idi. Qeyd edək ki, ingilis müstəmləkəçilərinin öz torpaqlarının yarasız olma səbəbindən müstəmləkə tarixində ilkin cığırları pambıq yetişdirmək üçün münbit torpaqları və qoyun sürüləri bəsləmək məqsədilə yaşıl otlaqları ələ keçirmək istiqamətində olub. Beləliklə, Avstraliya və Yeni Zellandiya (qoyunçuluq üçün) və Amerikanın münbit torpaqları isə pambıqçılığın inkişaf etdirilməsindən ötrü işğal olundular. Bununla da ələ keçirilmiş müstəmləkə mülkləri İngiltərədə toxuculuq sənayesinin inkişafı üçün zəruri olan xammal bazasına çevrildilər. Müstəmləkə mülklərini ələ keçirməkdə təcrübə əldə etmiş ingilis iş adamları bu sahədə özlərini sınamaq məqsədilə külli miqdarda gəlir əldə etmək niyyətilə müstəmləkəçiliyin yeni bir sahəsinə cığır açmaq istiqamətində irəliləyirdi. Bu yeni cığır onları "qara qızıla" doğru dartırdı. Bu işə də müvəffəq oldular. Neft sahəsilə bağlı nəşr olunmuş statistik məlumatlardan bəllidir ki, 1927-ci ildə dünyada kəşf və istismar olunan neftin 70 faizi ingilis müstəmləkəçiləri tərəfindən idarə olunurdu. İngilis neft maqnatları üçün neft mənbələrinə doğru yol açmaq işində uğur qazanmaq məqsədilə bələdçiliklə məşğul olan tüfeylilər içərisində erməni mənşəli dəllallar da vardı. Bu hər yerə soxulmağı bacaran erməni dəllallarından biri Gülbənkiyan adlı birisi idi ki, onun bələdçiliyilə 1920-ci illərin sonunda İraq neft mədənlərinə ingilislər üçün yol açıldı. Kitabçiyan adlı başqa bir erməni dəllalının bələdçiliyilə ingilis mənşəli D'arsi adlı bir maqnatın səyləri öz bəhrəsini verdi; 1909-cu ildə ingilis geoloqlarının rəhbərliyilə İranın cənubunda Ağacari adlı yerdə qazılan neft quyusu fontan vurdu və 1911-ci ildə İran nefti üzərində ağalıq edən "İngilis-İran neft şirkəti" təsis edildi. Çar hökuməti dairələrinin vasitəçiliyi ilə də Bakıda özlərinə "isti yuva" tikməyə nail olmuş ermənilər Bakı neft sənayesinə soxularaq qısa bir zamanda var-dövlət sahibi olmaqla avropalı maqnatlarla əlaqə yarada bildilər. Beləliklə, Çar hökuməti

[1] Генерал–майор Денстервиль, Британский Империализм в Баку и Персии 1917–1918 (вопоминания). Тифлись: Советский Кавказ, 1925, 127 с.



nümayəndələrinin proteksionizmi sayəsində ermənilərin Bakı neft mədənlərinə soxulmasına şərait yaratdı və nəticədə Bakı neftini ələ keçirməklə varlanan lobbi xislətli ermənilər Avropa maqnatları ilə işgüzar əlaqələr bərqərar etməyə nail oldular. Tarixi faktları və həqiqətləri saxtalaşdırmaqda təcrübələri olan erməni müəlliflərdən biri X.Dadayan adlı bir nəfərdir. Onun 2007-ci ildə İrəvanda nəşr etdirdiyi "Ermənilər və Bakı" adlı kitabında çəkinmədən erməni müəlliflərinə xas uydurma ilə qeyd edilib ki, guya "Bakıda neft sənayesinin əsası ermənilər tərəfindən qoyulmuşdur?".[1]

Neft probleminə həsr edilmiş maraqlı kitablardan biri də macar jurnalisti A.Kanenin qələmə aldığı "Neft ajiotajı" adlı tədqiqatdır.[2] Kitabın diqqəti çəkən bölmələrindən birində 1928-ci ildə Beynəlxalq Neft Kartelinin yaradılması və müasir dövrdə bu kompaniyanın fəaliyyətinin araşdırılmasıdır. Bu kitab ona görə diqqəti özünə cəlb edir ki, həmin kartel üzvlərindən bəzisi hal-hazırda Bakıda neft sahəsində çalışırlar. Dissertasiya yazılarkən həmin kitabdan faktaloji baxımdan bir mənbə kimi istifadə olunmuşdur.

**Tədqiqatın mənbə bazası.** a)Tədqiqat işi üzərində işləyərkən müxtəlif arxiv sənədləri və materiallarından ilkin mənbə kimi istifadə olunmuşdur. Qeyd edək ki, neft strateji əhəmiyyətli bir sərvət olduğundan onun istehsalı, nəqli və satışı haqqında məlumatlar çox zaman ictimaiyyətdən gizli saxlanır, bu məxfilik prinsipi Bakı neftinin bütün istismar mərhələlərinə də tətbiq olunmuşdur. Bakı nefti üzərində istər Çar Rusiyasının ağalığı dövründə və ələlxüsus da Sovet İttifaqının hakimiyyəti illərində Azərbaycanda istehsal olunan neftin bütün istismar mərhələləri haqqında məlumatlar məxfi qriflə saxlanılırdı. Gizli xarakterli bütün sənədlər və materiallar əsasən Moskvanın müxtəlif arxivlərinə ötürülürdü və buna görə də Bakı nefti haqqında dəqiq məlumat əldə etmək əslində qeyri-mümkün olurdu. Neftlə bağlı yalnız ikinci dərəcəli materiallar Bakı arxivlərində saxlanılırdı. Dissertasiyanın yazılmasında istifadə olunan Dövlət arxivləri əsasən aşağıdakılardan ibarətdir:

[1] Дадаян Х. Армяне и Баку (1850-ые гг. - 1920г.). Ереван: НОФ «НОРАВАНК», 2007, 208 с.
[2] Кане А. Нефтяная лихорадка. Москва: "Международные Отношения" 1980, 144 с.

- Azərbaycan Respublikası Dövlət Arxivi: Fond 11; fond 24; fond 41; fond 61; fond 84; fond 124; fond 379; fond 411; fond 413; fond 897; fond 846; fond 1933.

- Azərbaycan Respublikası Dövlət Tarix Arxivi: Fond 46; fond 486; fond 798.

b) **Dövri mətbuat.** Tədqiqat işinin yazılmasında əsasən jurnallardan, bülletein və qəzetlərdən istifadə olunmuşdur.

Jurnal – "Нефтяное Дело", "Socar plus" və s.

Qəzetlər – "Бакинский Рабочий", "Азербайджан" və s.

c) İnternet resursları.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Müdafiəyə təqdim olunan dissertasiya işinin əsas və başlıca məqsədi Birinci dünya müharibəsi illəri ərəfəsində və XX əsrin otuzuncu illərinin əvvəllərinə kimi olan dövrdə Azərbaycan neftinin beynəlxalq münasibətlərdə rolunu, o illərdə Bakı neftini ələ keçirmək uğrunda böyük dövlətlər tərəfindən müxtəlif vasitələrdən istifadə etməklə neft uğrunda açıq və qapalı şəkildə mübarizəsinin müxtəlif aspektlərini araşdırmaq və tədqiq etməkdir. Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuşdur:

- Birinci dünya müharibəsi ərəfəsində neft və neft məhsullarının beynəlxalq bazarlarda tələbata və qiymətinin artmasına təsir edən amilləri ətraflı tədqiq etmək;

- Azərbaycan Xalq Cümhuriyyətinin neft siyasətinin əsas aspektlərini müəyyən etmək və bu siyasətin Azərbaycan xalqının milli maraqlarına cavab verdiyini əsaslandırmaq;

- Rusiyada hakimiyyəti ələ keçirmiş Sovet Rusiyası dövləti tərəfindən elan olunmuş neft siyasətinin əsas aspektlərini tədqiq etmək və bu siyasətin talançılıq mahiyyət daşımasını əsaslandırmaq və ona hüquqi və siyasi baxımdan qiymət vermək;

- Sovet Rusiyasında ağır sənayenin və ələlxüsus hərbi və maşınqayırma sənayesinin yaradılmasında Bakı neftinin rolunu araşdırmaq və tədqiq etmək;

- Sovet Rusiyası Avropa dövlətlərilə ticarətdə maliyyə çətinlikləri üzündən əsasən barter üsulundan istifadə edirdi. Bu ticarət növünün həyata keçirilməsində Bakı nefti əsas rol oynamış və bununla da Bakıdan daşınaraq Almaniyaya və digər Avropa dövlətlərinə aparılan neft və neft məhsulları Birinci dünya və vətəndaş müharibələri zamanı dağıdılmış Rusiyada sənayeləşmə prosesinin sürətlə aparılmasına şərait yaratmış oldu. Bu, alqı-satqı prosesinin mahiyyətini üzə çıxarmaqla, Rusiyanı fəlakət girdabından



qurtarmaq işində Bakıdan daşınaraq aparılan neftin müstəsna rol oynamasını tədqiq etmək;

- Azərbaycan neftinin beynəlxalq səviyyədə təşkil olunmuş toplantılarda müzakirə olunmasına hüquqi qiymət vermək və bu toplantıların təşkilində Avropanın böyük dövlətlərinin və o dövrdə beynəlxalq münasibətlərin əsas oyunçularına məxsus transmilli neft kompaniyalarının fəal rol oynadığını üzə çıxarmaqla bu şirkətlərin hiylə və məkrli gedişlərlə yüklənmiş fəaliyyətlərinə obyektiv qiymət vermək;

- Bütövlükdə dünya siyasətində, xüsusilə beynəlxalq siyasətdə və ticarət əlaqələrinin gedişində müstəsna rol oynamış neft bazarını nəzarətdə saxlamaq məqsədilə 1928-ci ildə Avropanın və ABŞ-ın transmilli şirkətləri tərəfindən Beynəlxalq Neft Karteli (Yeddi bacılar) yaradıldı. Yenimüstəmləkəçilik xislətli bu təşkilatın əsas məqsəd və vəzifələrini, idarəçilik formalarını üzə çıxarmaq, həmçinin beynəlxalq neft bazarında "Yeddi bacılar"ın inhisarçılıq oyunlarına hüquqi-siyasi qiymət vermək.

**Dissertasiya işinin metodoloji əsasını** tarix elmində qəbul edilmiş ümumnəzəri və sosial elmi-idrak metodları təşkil edir. Bundan başqa dissertasiyanın yazılmasında elmi-siyasi ümumiləşdirmələr aparmaq və obyektiv nəticələr çıxarmaq məqsədilə sistem strukturu, sosioloji, müqayisəli təhlil və sistemli yanaşma metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın nəzəri əsası.** Tədqiqat işinin yazılması prosesində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan nefti haqqında əsərlərindən geniş istifadə olunmuşdur. Bundan başqa, adları aşağıda qeyd olunan ölkəmizin görkəmli alimlərinin – Ə.S.Sumbatzadənin, S.S.Əliyarovun, N.Nəsibzadənin[1], Ə.H.Əliyevin[2], C.Həsənlinin, Ə.Həsənovun[3], N.R.İsrafiloğlunun[4] və başqalarının əsərlərinə istinad olunmuşdur.

[1] Nəsibzadə N. Azərbaycan Xarici Siyasəti (1918–1920). Bakı: Ay–Ulduz, 1996, 216s.

[2] Əliyev Ə. Azərbaycan nefti dünya bazarında (XX əsrin 20–30–cu illəri). Bakı: Elm, 2011, 360 s.

[3] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.

[4] İsrafiloğlu N.R. Neft. Qlobal münaqişələr mənbəyi. Bakı: Şərq–Qərb, 2009, 464 s.

**Tədqiqat işinin elmi yeniliyi.** Dissertasiya işində ilk dəfə olaraq Birinci dünya müharibəsi ərəfəsindən XX əsrin 30-cu illərinə kimi dövründə böyük dövlətlər və onlara məxsus transmilli şirkətlərin Bakı neftini ələ keçirmək uğrunda mübarizəsinin müxtəlif aspektləri tədqiq və təhlil olunur, əsaslı ümumiləşdirmələr aparılmaqla elmi-siyasi və hüquqi nəticələr çıxarılır. Tədqiqat işinin elmi yeniliyini özündə əks etdirən və müdafiəyə çıxarılan elmi müddəalar aşağıdakılardan ibarətdir.

1. Dünyanı yenidən bölüşdürmək uğrunda gedən mübarizənin getdikcə şiddətlənməsi, bu mübarizənin hərbi qarşıdurmaya keçməsinin labüd olacağından xəbər verirdi. Belə bir şiddətli hərbi toqquşma ilə nəticələnməsini dərk edən o dövr beynəlxalq münasibətlərin əsas oyunçuları sayılan dövlətlər hərbi hazırlıq işlərini dövlət siyasəti səviyyəsinə qaldırmaqla müxtəlif tədbirlərə əl atırdılar. Həmin tədbirlərdən biri hərbi donanmanın daxili yanacaqla işləyən motorlarla təchiz olunması oldu ki, bu da hərbi donanmanın neft məhsulları ilə təmin olunmasını gündəmə gətirdi. Bu sahədə ilkin dövlət kimi Böyük Britaniya çıxış etmişdi.

2. İngilis hərbi donanmasının daxili yanacaqla işləməsinə texniki baxımdan keçildi, hərbi gəmilərinin dənizlərdə sürətlə üzməsinə və manevr etmək imkanlarına təsir etdi. Bu da ingilis donanmasına alman gəmilərilə vuruşmalarda üstünlük əldə etmələrinə təkan verdi və hərbi sahədə belə bir vəziyyətin yaranması neft mənbələrini ələ keçirilməsini şiddətləndirdi. Neft və neft məhsullarına sahib olmaq uğrunda başlanan kəskin rəqabət prosesi Bakı neftindən də yan keçmədi. Beləliklə, Bakı nefti nəinki müharibənin gedişinə təsir etdi və həm də külli miqdarda gəlir əldə etmək məqsədinə çevrildi.

3. Tədqiq olunan illərdə Bakı nefti üzərində yerli aborigenlərin yiyəlik hüququnu bərpa edən dövlət Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Bu milli dövlətin öz mülkü və sərvətləri üzərində hüququnu bərpa etməyə haqqı vardı. Lakin XI Qızıl ordunun Azərbaycanı işğal etməsindən sonra yenə də Bakı nefti üzərində biganələrin hökmranlığı bərpa olundu.

4. 1920-ci ildən etibarən Azərbaycan xalqı nəinki milli dövlətini, eyni zamanda milli sərvətləri üzərində sahiblik hüququnu itirmiş oldu. Azərbaycanda Sosialist dövləti qurmaq adı altında daxil olan ordunun əsas məqsədi burada heç də yalnız sosialist dövləti qurmaq niyyəti deyildi. Bu hərbi yürüşdə əsas məqsəd Azərbaycanı



işğal etmək və Abşeronun neft strukturlarını zəbt etmək idi. Ayının minbir oyunu bir armud üstündə olur.

5. Xarici ticarət əlaqələri çox zaman valyuta xərcləməklə həyata keçirlir. Lakin Rusiyada sosializm sisteminin bərqərar olduğu ilk illərdə bu ölkə başdan-başa dağılaraq xaraba qalmış bir məmləkətə çevrilmişdi. Həmin illərdə aclıq və milli fəlakət Rusiyada hökm sürməkdə idi. Belə bir acınacaqlı ölkədə hökm sürən qıtlıq və yoxsulluqdan yaxa qurtarmağın yeganə çıxış yolu sənayeləşməyə keçmək və kənd təsərrüfatını dirçəltmək idi. Bu məqsədə çatmaq üçün Avropadan qabaqcıl texnologiyanı Rusiyaya idxal etmək gündəmə gəlmişdi. Belə bir vəziyyətin hökm sürdüyü vaxt xarici ticarətdə barter sisteminə keçmək lazım idi. Yaranmış bu problemin həlli Bakı neft mədənlərini ələ keçirmək zərurətini meydana çıxartdı. Beləliklə, Bakı nefti vasitəsilə Almaniya ilə ticarət əlaqələrinin barter formada qurulması Rusiyanın aqrar ölkədən tədricən aqrar-sənaye ölkəsinə çevrilməsini gündəmə gətirmişdi.

6. Belə bir dövrdə Avropanın aparıcı dövlətləri və onların çətiri altında sürüklənən transmilli şirkətlər ölkəmizin milli sərvətinin tacı hesab olunan neftdən heç də asanlıqla əl çəkmək niyyətində deyildilər. Öz məqsədlərinə nail olmaq üçün müxtəlif vasitələrdən çəkinmədən istifadə olunurdu. Bu metod və vasitələrdən biri də beynəlxalq səviyyədə toplantılar təşkil etməklə Bakı neftini beynəlxalq səviyyəli süni problemə çevirməyə cəhd olunurdu. Avropalılar çox yaxşı anlayırdılar ki, Azərbaycan neftinin əsil sahibi bu ölkənin aborigen insanlarıdır və onların haqqına hörmətlə yanaşmaq lazımdır.

7. Beynəlxalq toplantılarda şıdırğı getmək və diplomatik çərənləmək yolu ilə heç nə əldə etməyən avropalılar başqa bir hiyləyə əl atdılar - neft sənayesini inhisara çevirmək, bu inhisar birliyinin açarlarını isə ABŞ-Avropa transmilli şirkətlərinə məxsus seyflərdə məxfi saxlamaq. Beləliklə, 1928-ci ildə neft maqnatı Deterdinqin təşəbbüsü ilə Beynəlxalq Neft Karteli (Yeddi bacılar) zühur etdi. Müasir dövrdə də neft və neft məhsullarının dünya bazarında qiyməti və satışı, yeni neft strukturlarının aşkar olunması, neftin nəqli və emalı kimi problemlərin tənzimlənməsi həmin Beynəlxalq Neft Kartelinin nəzarəti altındadır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Heç şübhəsiz, neft sənayesi olduqca ciddi və mühüm iqtisadi, siyasi və hərbi-strateji əhəmiyyətə malik olan qlobal bir problemdir. Tədqiqat işində irəli sürülən təklif və tövsiyələrdən, aparılmış ümumiləşdirmələrdən və

əldə olunmuş elmi-siyasi nəticələrdən müxtəlif sahələrdə istifadə etmək olar. Tədqiqat işindən neft sənayesini idarə edən dövlət strukturlarının praktik fəaliyyətlərində yaradıcılıqla istifadə etmək olar. Tədqiqat işindən Xarici İşlər Nazirliyinin müvafiq strukturlarının müvafiq əməli fəaliyyətlərində, xarici ticarətlə məşqul olan orqanların ticarət əlaqələrinin qurulması və inkişafında istifadə olunması faydalı ola bilər. Bundan başqa, dissertasiyadan tədris prosesində, elmi-tədqiqat işlərinin yazılmasında, monoqrafik əsərlərin qələmə alınmasında, dərslik və dərs vəsaitlərinin hazırlanmasında maraqlı mənbə kimi istifadə olunması fayda verə bilər. Həm də, bu əsər istiqamətverici əhəmiyyətə malik bir tədqiqat olduğundan ondan müvafiq mütəxəssislər bəhrələnə bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" şöbəsində yerinə yetirilmiş və müzakirə olunmuşdur. Dissertasiya tədqiqatının əsas müddəaları və nəticələri nüfuzlu elmi jurnallarda, həmçinin respublika və beynəlxalq səviyyədə keçirilmiş elmi-praktiki konfransların materiallarında dərc edilmişdir

**Dissertasiyanın strukturu.** Dissertasiya girişdən, üç fəsli özündə birləşdirən yeddi yarımfəsillərdən, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından, 11 cədvəldən və 167 səhifədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, onun elmi araşdırma dərəcəsi göstərilir, tədqiqatın məqsəd və vəzifələri, nəzəri əsasları müəyyən edilir, işin elmi yeniliyi qeyd olunur, müdafiəyə çıxarılan əsas müddəalar formalaşdırılır, nəzəri və təcrübü əhəmiyyəti açıqlanır.

Birinci fəsil - **"Baki neftinin inkişaf tarixinə bir baxış"** üç yarımfəsildən ibarətdir. **"Çar Rusiyasının müstəmləkəçilik siyasətində Bakı neftinin yeri"** adlı birinci yarımfəsildə qeyd olunur ki, XIX əsrin əvvəllərində Şimali Azərbaycan Çar Rusiyası tərəfindən işğal olunduqdan sonra 1826-cı ildə Abşeronun neft mədənləri, balıq vətəgələri və duz mədənlərinin Çar I Nikolayın xüsusi mülkiyyətinə keçməsi barəsində fərman verilmişdir. Əgər XIX əsrin əvvəllərində Bakı geridə qalmış kiçik bir şəhəri xatırladırdısa, XIX əsrin sonlarında bu mənzərə tamamilə dəyişmişdi. Sürətli



inkişaf nəticəsində neftlə zəngin olan Bakının əhalisi artmış və şəhər Xəzər regionunun paytaxtına çevrilmişdir. Belə ki, 1870-ci ildə Bakının əhalisi cəmi 12191 nəfər olduğu halda, 1879-cu ildə artaraq 15105 nəfərə çatmış, 1883-cü ildə isə artıq 50000 nəfər olmuşdu[1].

Tədqiqat işinin bu yarımfəslində elə nəticəyə gəlinir ki, Çar Rusiyasının müstəmləkəçilik siyasətində Bakı neftinin rolu çox böyük olmuşdur. XIX əsrdə Abşeronun aborigen əhalisinə məxsus milli sərvətləri üzərində yiyəlik hüquqları əllərindən alınmışdır. Belə zorakılıqla müşaiyyət olunan əməllər adətən müstəmləkəçi dövlətlərin zəbt etdikləri ərazilərdə siyasətlərinin və idarəetmə sisteminin əsasını təşkil edirdi.

**"Avropalıların Bakı nefti uğrunda mübarizələri siyasi vasitə kimi"** adlanan ikinci yarımfəsildə göstərilir ki, XIX əsrin sonlarında bütövlükdə dünya neft tarixində keyfiyyətcə yeni bir dövr başlandı. Müxtəlif istiqamətlərdə Avropa və Amerikanın transmilli şirkətləri neft və neft məhsullarının daha çox gəlir gətirən sahə olmasını dərk edərək bu "qara qızılı" beynəlxalq ticarət bazarlarına daxil etməyə təşəbbüs etdilər.

Tədqiqatçı belə bir cəhəti qeyd etməyi zəruri hesab edir ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində Bakı şəhəri dünyanın əsas neft paytaxtlarından biri kimi tanınırdı. XX əsrin əvvələrində Bakı neftçıxarma sənayesi dünyada birinci yerdə idi. Nobel qardaşları, Rotşildlər burada sərvətə sahib olub, varlandılar. Nobel mükafatının ianəçisi Lüdviq Nobel isə "Rus Rokfelleri" kimi tanınırdı. Lüdviq Nobel dünyada ilk dəfə olaraq Xəzər dənizindən neftin daşınması üçün tanker hazırlatdırdı.

XX əsrin əvvəllərindən başlayaraq neft alqı-satqısı prosesinə dövlətlərin özlərinin də qoşulması nəticəsində diplomatiya sistemində yeni və həm də çox gəlirli bir istiqamət - neft diplomatiyası təşəkkül tapdı. Məhz XX əsrin əvvəllərindən başlayaraq neft strukturlarını ələ keçirmək məqsədilə dollardan da bir kəsərli vasitə kimi istifadə olundu və beləliklə neft diplomatiyasının əsası qoyuldu. Bu proses Bakı neftindən də yan keçmədi. Yad ünsürlər tərəfindən idarə və istismar edilən milli sərvətimiz varlanmaq və talan olunmaq obyektinə çevrildi. Milli dövlətdən məhrum olunmuş bir məmləkətin milli sərvəti ilə yadlar başqa cür də rəftar etmirlər! Azərbaycanlıların

---

[1] Marven C. The region of eternal fire an account ok. A journey to the petroleum region of the Caspian in 1883, London, W. H. Allen & Co., Limited is, Waterloo Place 1891, p.318.

isə bu talançılıq prosesində yeri yalnız seyr etməkdən başqa bir şey deyildi!

Üçüncü yarımfəsildə **“Azərbaycan Xalq Cümhuriyyətinin neft siyasəti beynəlxalq əlaqələrinin qurulmasında mühüm amil rolunda”** araşdırılır. İddiaçı qeyd edir ki, Rusiyada çar üsul-idarəsinin ləğvi, baş verən fevral və oktyabr çevrilişləri, Birinci Dünya müharibəsinin fəsadları və bir sıra digər hadisələr Qafqazı ayrı–ayrı siyasi qüvvələrin qarşıdurma meydanına çevirmişdi. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə göstərdiyi maraq isə vəziyyəti daha da gərginləşdirirdi. Bakının neft paytaxtına çevrilməsi milli xırda sahibkarlar təbəqəsinin formalaşması ilə yanaşı, dünyanın aparıcı universitetlərində təhsil almış ziyalılar nəslinin yetişməsinə şərait yaratmışdı ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında onların böyük rolu və əməyi olmuşdur.

4 iyun 1918-ci il tarixində Türkiyənin Azərbaycanı de fakto tanıması haqqında razılaşmadan sonra, Bakı-Batum neft kəməri haqqında Azərbaycan, Gürcüstan və Türkiyə nümayəndələri tərəfindən razılaşma imzalandı. Tərəflərin hər biri neft kəmərinin öz ərazilərində olan hissəsinin təhlükəsizliyini təmin etməyi öhdələrinə götürdülər. Bu razılaşmanın əldə olunması Azərbaycan neft sənayesinin inkişafını stimullaşdırmaqla yanaşı, onun dünya bazarına çıxmasını da təmin edirdi.

İkinci fəsil - **“20-22-ci illərdə Baki nefti Azərbaycanin xarici ticarətində”** iki yarımfəsildən ibarətdir. **“Beynəlxalq konfranslarda Bakı nefti problemlərinin siyasi diskusiyası”** sərlövhəli birinci yarımfəsildə göstərilir ki, 1922-ci ildə Sovet İttifaqı Bakı neftini tamamilə öz əlinə ala bilmişdi. 1922-ci ilin aprel ayının 6-da İtaliyanın Genuya şəhərində Sovet nümayəndə heyətinin təqdim etdiyi bəyanatda Qərb ölkələrinin konsessiya maraqları Sibirin təbii ehtiyatlarına yönəldilsə də, konfransın əsas hədəflərindən biri Bakı nefti üzərində qurulmuşdu. Avropa mətbuatının fikrincə, “dünyanın heç bir rayonu Bakı neftini əvəz edə bilməzdi”.

Müəllif elmi mənbələrə istinad edərək qeyd edir ki, Genuya konfransının iclaslarında, memorandumlarında, protokollarında və digər sənədlərində neft haqqında açıq-açığına bir dəfə də olsun söhbət getməməsinə, nümayəndələrin konfransın davam etdiyi müddətdə neft məsələsini açıq və rəsmi surətdə müzakirə etməmələrinə baxmayaraq, burada diqqət mərkəzində duran əsas məsələ Sovet nefti idi. Neft məsələsi konfransda rəsmi formada müzakirə



olunmasa da, əsasən kulislərdə, qeyri-rəsmi, xüsusən də ikitərəfli görüşlərdə müzakirə olunurdu.

İkinci yarımfəsildə **“Sovet Rusiyasının Azərbaycanla əlaqələrində Bakı neftinin rolu və əhəmiyyəti”** tədqiq edilir. İddiaçı göstərir ki, harada çoxlu neft var, ora hər zaman dramatik hadisələrlə yüklənmiş olur. Təəssüflər olsun ki, Bakı da belə yerlərdən biri oldu. Birinci dünya müharibəsi zamanı neft və neft məhsullarından istifadə neftin əhəmiyyətini olduqca artırdı. Məhz bu səbəbdən Bakı mübarizə meydanına çevrilmişdi. Hər kəs Bakı neftinə sahib olmaq istəyirdi. 1920-ci ilin mayın 24-də neft sənayesi, ümumiyyətlə bütün iri sənaye sahələri Sovet Rusiyası tərəfindən milliləşdirildi. Neft və neft məhsulları ticarəti dövlət inhisarına alındı[1]. Əvvəllər neft təsərrüfatını idarə edən 272 xüsusi neft sənaye şirkətləri ləğv olundu. Neft sənayesi və ticarətini idarə etmək üçün birbaşa Moskvaya tabe olan özünü “hökumət içində hökumət” hesab edən “Azneftkom” yaradıldı[23].

Üçüncü fəsil - **“SSRİ yarandıqdan sonra Bakı neftinin Rusiyanin beynəlxalq münasibətlərinə təsiri”** iki yarımfəsildən ibarətdir. **“Sovet Rusiyasının Avropa ölkələrilə ticarət əlaqələrində Bakı neftindən əsas vasitə kimi istifadə etməsi”** adlı birinci yarımfəsildə qeyd olunur ki, 1924-cü ildən başlayaraq Rokfellerin firmaları kütləvi şəkildə Sovet neftini almağa başladı. Amerika nümayəndələri hətta SSRİ-də növbəti bir neçə ildə hasil ediləcək bütün nefti də bəri başdan almağa çalışırdılar[4]. Lakin onlara imtina olundu. Ancaq ilbəil müntəzəm olaraq sövdələşmələr artırıldı. Xüsusilə 1927-ci ildə İngiltərə ilə SSRİ arasında əlaqələr pozulduğu zaman Amerika daha da aktivləşdi.

İddiaçı tədqiqat əsərlərinə və arxiv materiallarına istinadən göstərir ki, 1923-1924-cü ildə İngiltərənin idxal etdiyi neft məhsullarının 3,8%-ni, Fransanın idxal etdiyi neft məhsullarının 4,3%-ni, Almaniyanın idxal etdiyi neft məhsullaırn 10%-ni,

---

[1] Əliyev Ə. Sovet hakimiyyəti illərində Azərbaycan neft sənayesinin inkişafı. Bakı: Azərnəşr, 1957, s.8.
[2] XX əsr Azərbaycan tarixi II c. Ali məktəblər üçün dərslik. Bakı: Təhsil, 2009, s.255–256
[3] Султанов Ч.А. Прерванный полет. Вторая попытка. Баку: Сабах, 1997, с.77.
[4] Фурсенко А.А. Нефтяные войны (конец XX–начало XX в.). Ленинград: НАУКА, 1985, 207 с.182-183.

İtaliyanın idxal etdiyi neft məhsullarının 6,5%-ni, Misirin idxal etdiyi neft məhsullarının 41,1%-ni, Belçikanın idxal etdiyi neft məhsullarının 10,3%-ni, Bolqarıstanın idxal etdiyi neft məhsullarının 14%-ni, Türkiyənin idxal etdiyi neft məhsullarının 24,3%-ni Sovet nefti təşkil edirdi[1].

Neft və neft məhsullarının satışını yaxşılaşdırmaq və artırmaq məqsədi ilə 1924-cü ildə Azərbaycan Dövlət Neft Ticarəti Kontoru "Aznefttic" yaradılmışdı. Aznefttic-ə bir çox hüquqlar verilmişdi. Belə ki, o Zaqafqaziyada satdığı məhsulları həm nağd pulla, həm kreditlə, həm də əmtəə mübadiləsi üsulu ilə reallaşdıra bilərdi. Aznefttic hüququ şəxsin hüquqlarına malik idi və öz öhdəlikləri çərçivəsində cavabdehlik daşıyırdı[2].

**"Beynəlxalq neft Kartelinin dövlətlərin xarici siyasətinə təsiri və Azərbaycan nefti"** adlanan ikinci yarımfəsildə elmə əsərlərə istinadən göstərilir ki, XX əsrin əvvəllərində İngilis-İran neft şirkəti (indi British Petroleum (BP)), Royal Dutch Shell (Niderland/İngiltərə), Gulf Oil, Standard Oil of California (SoCal) (indiki Chevron), Texaco (Chevron-un tərkibinə daxil edilib), Standard Oil of New Jersey (Esso) (indiki Exxon) və Standard Oil Company of New York (Socony) (indiki Mobil) adlı transmilli neft şirkətləri dünya neft bazarında üstünlük təşkil etməklə və həm də mənsub olduqları dövlətlərin xarici siyasətinə güclü təsir göstərmək imkanlarına malik idilər. Kapitalist sisteminə məxsus inhisar birlikləri yüksək gəlir əldə etmək üçün müxtəlif üsullardan istifadə etmişdilər. Rəqibi mübarizə meydanından kənarlaşdırmaq üçün "sənaye kəşfiyyatından" tutmuş rüşvətə qədər bütün vasitələr işə salınır və hal-hazırda da bu metodlar geniş tətbiq olunur. Belə metodlardan biri də beynəlxlaq Kartellərin yaradılması idi. Bu proses neft sahəsindən də yan keçmədi və beləliklə, "Yeddi bacılar" həyata vəsiqə aldı.

Beynəlxalq neft kartelinin iştirakçıları Yaxın və Orta Şərqdə, Latın Amerikasında, Afrikada, habelə Cənub-Şərqi Asiyada bir neçə milyon kvadrat kilometr ərazi kirayəyə götürdülər. Yeddi bacılar neft istehsal və istehlak edən ölkələrə sızaraq beynəlxalq monopolist neft bazarını bərqərar etdilər. Onlar Amerika və Avropa ölkələrində neft ehtiyyatlarının və hasilatının böyük hissəsini ələ keçirməklə neftin

[1] Əliyev Ə. Azərbaycan nefti dünya bazarında (XX əsrin 20–30–cu illəri). Bakı: Elm, 2011, s.110-111.
[2] ARDA, F.413, siy.1, iş 27, v.33, 36



əhəmiyyətli bir hissəsinin emalına, həmçinin tanker donanmasına sahib oldular.

**Nəticə** hissəsində tədqiqatın yekun elmi nəticələri ümumiləşdirilmiş şəkildə öz əksini tapmışdır.

**Dissertasiyanın mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur**:

1. Beynəlxalq Neft Karteli (Yeddi bacılar) - kəklik ovundan dünya hegemonluğuna // AMEA Fəlsəfə və Hüquq İnstitutu. Müasir dövrdə beynəlxalq münasibətlər və beynəlxalq hüququn bəzi problemləri (Elmi məqalələr toplusu). Bakı, Elm, 2014, 19 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti və Bakı nefti // Elmi əsərlər. AMEA Fəlsəfə və Hüquq İnstitutu, Beynəlxalq elmi-nəzəri jurnal, Bakı, № 2 (23), 2014, 6 s.
3. 1920-1922-ci illərdə Azərbaycan nefti // Beynəlxalq hüquq və inteqrasiya problemləri, Elmi-analitik və praktiki jurnal. Bakı, № 4 (40), 2014, 6 s.
4. SSRİ-nin sənayeləşməsində Bakı neftinin rolu // Bakı Universitetinin Xəbərləri (sosial-siyasi elmlər seriyası), № 2, Bakı, 2014, 9 s.
5. Genuya və Haaqa konfranslarında Azərbaycan nefti məsələsi // Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Bakı, № 2 (50), 2015, 6 s.
6. Çar Rusiyası və Azərbaycan nefti // Tarix və onun problemləri (nəzəri, elmi, metodik jurnal), Bakı, № 2, 2015, 6 s.
7. Реконструкция добычи бакинской нефти после образования Азербайджанской ССР // Law and Politology (Права и политология), İnternational scientific journal. Chisinau № 30, June-2015, 5 s.
8. The Europeans struggle for Azerbaijani oil // Гілея, выпуск 102 (11), Киев, 2015, 5 s. Intercultural Relations Society. Intercultural Communucations, Tbilisi, № 26, 2015, 7 s.
9. Bakı neftinə xarici kapital axının təsiri / Bakı Dövlət Universiteti Hüquq fakültəsi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda Beynəlxalq Elmi-praktik Konfransın materialları. Bakı, 5 may 2015, 2 s.
10. Azərbaycanın neft sənayesinin inkişaf strategiyası / Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi. "Milli mənafelərin iqtisadi və diplomatik aspektləri"

mövzusunda keçirilmiş Elmi-praktik Konfransın materialları. Bakı, 2013, 5 s.



**Улькяр Казым кызы Алиева**

**РЕЗЮМЕ**

**Роль Азербайджанской нефти в международных отношениях 20-х годов XX века**

Диссертационная работа Улькяр Казым кызы Алиевой на тему «Роль Азербайджанской нефти в международных отношениях 20-х годов XX века» посвящена роли Бакинской нефти в 20-х годах XX века построению промышленности как в Азербайджанской Демократической Республики, так и в СССР, а также в международных отношениях.

Диссертация состоит из введения, трех глав объединяющих в себе 7 полуглав, заключения, списка использованных источников и литературы.

Во введении обоснована актуальность темы диссертации, указана степень разработанности исследования, цели и задачи работы, определена теоретическая основа, отмечена научная новизна работы, сформированы основные положения выносимые на защиту, раскрыта теоретическая и практическая значимость.

Первая глава называется «Обзор истории развития Бакинской нефти» и состоит из трех полуглав. В этой главе отмечается, что если в начале XIX века Баку напоминал отсталый маленький город, то в конце XIX века в результате быстрого развития население богатого нефтью Баку увеличилось, и город стал столицей Каспийского региона. Вторая глава – «Бакинская нефть во внешней торговле Азербайджана в 20-22-х годах» состоит из двух полуглав. В этой главе указывается, что в 1922 году Советский Союз, полностью забрал в свои руки Бакинскую нефть. Для того, чтобы найти покупателя на Бакинскую нефть россияне отдали предпочтение участию на международных конференциях. Третья глава – «Влияние Бакинской нефти на международные отношения России после образования СССР» состоит из двух полуглав. В этой главе отмечается роль бакинской нефти в первые годы после создания СССР, для преодоления экономических и социальных проблем, а также для перестройки и развития. Второй полуглав посвящен крупнейшим в мире 7 монополистским нефтяным компаниям (семь сестер).

В заключительной части диссертационной работы в обобщенном виде нашли свое отражение научные выводы исследования.

**Ulkar Aliyeva Kazim**

**SUMMARY**

**The role of Azerbaijani oil in International Relations 20-ies of the XX century**

The thesis of on “The role of Azerbaijani oil in International Relations 20-ies of the XX century” presented for the degree of Doctor of Philosophy in Political Science by speciality 5901.01 - International Relations, focuses on the role of the Baku oil in the 20-ies of XX century the construction industry in the Democratic Republic of Azerbaijan and the USSR, as well as in international relations.

The thesis consists of an introduction, three chapters consisting of 7 subchapters, conclusion, list of used sources and literature.

The introduction substantiates the actuality of the topic of the dissertation, indicates the degree of elaboration of studies, goals and objectives, defines theoretical framework,states scientific novelty of the work, formes the main provisions for the defense, reveales theoretical and practical importance.

The first chapter is called “A review of the history of Baku oil” and consists of three subchaptes. This section notes that if at the beginning of the XIX century Baku reminded backward little town, at the end of the XIX century, as a result of the rapid development oil rich population of Baku increased and the city became the capital of the Caspian region. The second chapter is called – “Baku oil in the foreign trade of Azerbaijan in the 20-22-ies” consists of two subchapters. This section states that in 1922 the Soviet Union fully took into their own hands the Baku oil. In order to find a buyer for the Baku oil Russians prefer to participate in international conferences. The third chapter – “The influence of the Baku oil to the international relations of Russia after the USSR” consists of two subchapters. This chapter notes the role of Baku oil in the first years after the creation of the USSR, to overcome economic and social problems, as well as for restructuring and development. The second subchapter is about world's largest 7 monopolist oil companies (seven sisters).

In the final part of the thesis summarized scientific findings of the study are reflected.



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**УЛЬКЯР КАЗЫМ КЫЗЫ АЛИЕВОЙ**

# РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ НЕФТИ В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ 20-Х ГОДОВ XX ВЕКА

Специальность: 5901.01 – Международные отношения

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора философии по политическим наукам

**БАКУ – 2017**